AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə: 133-139
https://doi.org/10.59849/2664-5432.2026.2.133

Aytən ALLAHVERDİYEVA*

SOVET DÖVRÜ AZƏRBAYCANDA ÇOXDİLLİLİYİN FORMALAŞMASI: TARİXİ VƏ EKSTRALİNQVİSTİK AMİLLƏR

XÜLASƏ

Sovet dövründə Azərbaycanda çoxdillilik əsasən Azərbaycan və rus dilləri arasında formalaşmış ikidilli sistem kimi inkişaf etmişdir. Bu dövrdə rus dili dövlət idarəçiliyində, təhsil sistemində və elmi sahədə üstün mövqeyə malik idi. Azərbaycan dili isə daha çox gündəlik ünsiyyət və mədəniyyət sahəsində istifadə olunurdu. Eyni zamanda bəzi etnik azlıqların dilləri mövcud olsa da, onların rəsmi və institusional istifadəsi məhdud idi.

Məqalənin məqsədi Sovet dövründə Azərbaycanda çoxdillilik prosesini araşdırmaq, həmin dövrdə Azərbaycan və rus dillərinin cəmiyyətdəki rolunu təhlil etmək və dil siyasətinin əsas istiqamətlərini və məqsədlərini izah etməkdir. Eyni zamanda, bu prosesin Azərbaycan cəmiyyətində yaratdığı çoxdillilik vəziyyətini və onun milli dilə təsirlərini göstərmək də məqalənin əsas hədəflərindən biridir.

Açar sözlər: *çoxdillilik, Sovet dövrü, Azərbaycan dili, rus dili, ikidillilik, dil siyasəti*

Azərbaycan kontekstində çoxdillilik tarixi köklərə malik olsa da, bu prosesin daha sistemli və geniş miqyaslı xarakter alması xüsusilə sovet dövrünə təsadüf edir. Əslində, çoxdilliliyin ilkin mərhələsi hələ qədim və orta əsrlərdə müxtəlif etnik qrupların – türkdilli tayfaların, irandilli xalqların, Qafqaz dilləri daşıyıcılarının bu ərazidə yanaşı yaşaması ilə formalaşmış, fərqli dillərin paralel işlənməsi ənənə halını almışdır. Bu zəmin sonrakı dövrlərdə dil müxtəlifliyinin qorunub saxlanmasına və inkişafına imkan yaratmışdır.

Sovet dövründə isə çoxdillilik yeni məzmun qazanaraq dövlət siyasəti çərçivəsində daha da möhkəmlənmişdir. Bir tərəfdən milli dillərin inkişafı üçün şərait yaradılır, digər tərəfdən rus dili ümumittifaq ünsiyyət vasitəsi kimi geniş yayılırdı. Təhsil, idarəetmə, elm və texnika sahələrində rus dilinin aparıcı mövqeyi, eyni zamanda yerli dillərin gündəlik və mədəni həyatda istifadəsi Azərbaycanda funksional çoxdilliliyin formalaşmasına gətirib çıxarmışdır. Beləliklə, tarixi çoxdillilik ənənəsi sovet dövründə institusional səviyyəyə yüksələrək müasir dil mühitinin əsasını təşkil etmişdir.

Azərbaycanda çoxdilliliyin tarixi və sosial əsasları

Oktyabr Sosialist İnqilabı milli dillərin inkişafına mühüm təkan vermişdir. Sosialist xalqlarının dillərindən biri kimi Azərbaycan dili məhz bu tarixi hadisədən

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Nəzəri dilçilik şöbəsi, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email: a._ayten@mail.ru; aytanallahverdiyeva@anas.az

sonra əsrlər boyu məruz qaldığı assimilyasiya təsirlərindən tədricən azad olmuş, real inkişaf və zənginləşmə imkanları qazanmışdır. Bu baxımdan, dilin ictimai statusunun yüksəlməsi onun funksional sahələrinin genişlənməsinə və normativ əsaslarının möhkəmlənməsinə şərait yaratmışdır. Nəticə etibarilə, Azərbaycan dili normallaşma və sistemləşmə prosesinə daxil olaraq elmi əsaslara söykənən yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bununla yanaşı, inqilabdan sonrakı dövrdə dil siyasətində milli məsələyə yanaşma prinsipləri də əsaslı şəkildə dəyişmişdir. Xüsusilə milli dillərin qorunması və inkişafına yönəlmiş tədbirlər onların ictimai, mədəni və dövlət idarəçiliyi sahələrində daha geniş tətbiqini təmin etmişdir. Belə bir siyasət ayrı-ayrı dillərin yalnız mövcudluğunu qorumaqla kifayətlənməmiş, eyni zamanda onların funksional imkanlarının genişlənməsinə və ictimai əhəmiyyətinin artmasına səbəb olmuşdur.

Sovet hakimiyyəti dövründə Azərbaycanda dil mənzərəsi olduqca rəngarəng xarakter daşıyırdı. Rəsmi və inzibati sahədə rus dili üstün mövqedə olsa da, cəmiyyətin gündəlik həyatında və müxtəlif etnik qruplar arasında çoxdillilik geniş yayılmışdı. Bu çoxdilli mühit, dillərarası qarşılıqlı təsirin güclənməsinə, leksik və üslubi zənginləşməyə, eləcə də dil kontaktlarının intensivləşməsinə şərait yaradırdı [Xudiyev: 1989, s.66].

Çoxdillilik fenomeni tarixən müxtəlif cəmiyyətlərdə müşahidə olunan və əsasən sosial-kommunikativ ehtiyacların nəticəsi kimi formalaşmış dil hadisəsidir. İnsanların ana dilindən əlavə digər dillərdə ünsiyyət qurmaq zərurəti, xüsusilə ticarət, siyasi əlaqələr və mədəni qarşılıqlı təsir kontekstində çoxdilliliyin yaranmasını şərtləndirmişdir. Bu proses zamanı dillər arasında qarşılıqlı leksik keçidlər baş vermiş, söz alınmaları isə dil təmaslarının ən mühüm göstəricilərindən biri kimi çıxış etmişdir [Cəfərova :2018, s.8]. Beləliklə, birbaşa və dolayı dil əlaqələri nəticəsində formalaşan leksik qatlar dillərin inkişaf dinamikasında mühüm rol oynamışdır. Bu ümumi nəzəri çərçivə Sovet dövründə Azərbaycanda müşahidə olunan dil vəziyyəti ilə də birbaşa əlaqələndirilə bilər. Həmin dövrdə Azərbaycan vətəndaşlarının böyük əksəriyyəti ikinci dil kimi rus dilindən istifadə etmiş, bu isə ölkə ərazisində ikidilliliyin spesifik formalarının yaranmasına gətirib çıxarmışdır. Bu vəziyyətin formalaşmasında tarixi-ekstralinqvistik amillər, o cümlədən coğrafi mövqe və siyasi faktorlar mühüm rol oynamışdır.

Azərbaycan tarixən güclü geosiyasi və mədəni təmas zonasında yerləşmiş, bu isə dil əlaqələrinin intensivləşməsinə səbəb olmuşdur. Eyni zamanda, son iki əsrdə Azərbaycanın mədəni, iqtisadi, təhsil və siyasi sahələrdə inkişafı rus dilinin geniş yayılmasını daha da sürətləndirmişdir. Bu proses nəticəsində rus-Azərbaycan ikidilliliyi formalaşmış və daha sabit bir sosial-dil modeli kimi çıxış etmişdir. Tarixi mənbələrdə bu ikidilliliyin ilkin izlərinə Erkən Orta əsrlər dövründə, xüsusilə IX–XIII əsrlərə aid ticarət və hərbi-siyasi əlaqələr kontekstində rast gəlinməsi qeyd olunur [Асланов :1972, s.32]. Həmin dövrdə baş verən ticarət mübadilələri və müxtəlif basqınlar dillərarası təmasları gücləndirərək sonrakı mərhələlərdə formalaşacaq dil əlaqələrinin tarixi əsaslarını yaratmışdır.

Rusiyanın köçürmə siyasəti dildə və ümumilikdə Azərbaycan-Rusiya münasibətlərində də mühüm rol oynadı. Azərbaycan ərazisində çox sayda molokan, duxobor, subbotnik, protestant və s. kimi dini icmalar köçürüldü. Bütün bu tarixi-ekstralinqvistik amillər, şübhəsiz ki, Azərbaycanda ikidilliliyin inkişafında rol oynadı. Bundan əlavə, köçürmə siyasətinin həyata keçirilməsi qədim zamanlardan bəri müxtəlif millətlərin və etnik qrupların nümayəndələrinin Azərbaycan ərazisində geniş məskunlaşmasının başqa bir səbəbi olmuşdur. Sasani köçürmə siyasəti nəticəsində İran dillərindən birini bilən və indi Azərbaycanın şimal-şərq hissəsində yaşayan Tatlar və Dağ Yəhudiləri Azərbaycanın şimal-şərqinə köçürüldülər. Dağıstan xalqları da şimaldan Azərbaycan ərazisinə gətirildi və yerləşdirildi: avarlar, ləzgilər, saxurlar [Алиэаде :2016, s.110]. Köçürmə siyasəti Azərbaycan ərazisində müxtəlif dövrlərdə həyata keçirildi, lakin kütləvi köçürmələrdən biri XIX əsrin sonu, XX əsrin əvvəllərində Rusiyanın Şimali Azərbaycanda möhkəmlənməsinə təsadüf etdi.

Bunlar Azərbaycanın SSRİ-yə daxil olduğu, əhali siyahıyaalınmasının keçirildiyi, fərqli etnik qrupların sayının dəyişdiyi və ölkədə çoxdilliliyin daha da genişləndiyi dövrlər idi. XIX əsrdə ermənilərin, polyakların, almanların və rusların geniş miqyaslı köçürülməsi baş verdi ki, bu da Azərbaycanda milli, etnik, etnodemoqrafik və dil quruluşunu kökündən dəyişdirdi [Алиэаде :2016, s.111]. Yenidənqurma siyasəti nəticəsində ölkədə xristian dinini qəbul edən əhalinin artması, başqa xalqlarla və millətlərə mənsub olan insanların sayında artım və bu kimi dəyişikliklər baş verdi ki, bu da ölkənin dil quruluşuna təsirini göstərdi.

XIX əsrin əvvəlləri Rusiya rəhbərliyi tərəfindən Şimali Azərbaycan xanlıqlarının ərazisində yeni mahal və vilayətlərin birləşdirilməsi və yaradılması dövrü idi. Ərazi idarəetməsinin inzibati bölgüsündə dəyişikliklərlə yanaşı bölgədəki demoqrafik vəziyyət də xeyli dəyişdi. Hər şeydən əvvəl köçürülmə siyasəti Rusiya səlahiyyətliləri tərəfindən həyata keçirilmişdir. Bütün bu miqrasiya axınları həm əhalinin sayına, həm də etnik tərkibinə əhəmiyyətli təsir göstərmişdir. Lakin bu kütləvi köçürmələrə baxmayaraq, azərbaycanlılar Cənubi Qafqaz əhalisinin əsas hissəsini təşkil edirdi. [Мамедли, Соловьева: 2017, s.24]. Xalqların respublika ərazisinə köçürülməsi kimi tarixi ekstralinqvistik amil təkcə etnik qarışmanın səbəbi deyil, həm də dövlətin dil mühitinə böyük təsir göstərməsidir. Rus dili, gündəlik həyatda yalnız köçürülən xalqların deyil, yerli sakinlər arasında da istifadə olunurdu və öz növbəsində yalnız azərbaycanlılar deyil, respublikada yaşayan bütün sakinlər də rus dilindən istifadə edirdilər.

Qədim dövrlərdən etibarən Azərbaycanda müxtəlif etnik qruplar sülh və qarşılıqlı hörmət şəraitində yaşamış, ölkə ərazisində çoxdilli və çoxmədəniyyətli mühit formalaşmışdır. Xüsusilə XIX əsrdə Avropanın müxtəlif bölgələrindən gələn xalqların Azərbaycana köçü bu müxtəlifliyi daha da genişləndirmişdir. Onların sırasında ruslar (molokanlar, duxoborlar), almanlar, polyaklar, yunanlar, isveçlilər, estonlar, litvalılar, latışlar, çexlər və digər etnik qruplar yer almışdır. 1926-cı il əhalinin siyahıya alınmasının nəticələrinə əsasən, Azərbaycanda 13 149 alman, 2

460 polyak, 904 yunan, 564 latviyalı, 285 litvalı, 168 eston və eyni zamanda nisbətən az sayda fransız, italyan, çex, bolqar və digər millətlərin nümayəndələri yaşamışdır [Зейналова:2006]. Bu faktlar Azərbaycanın tarixi baxımdan dərin multikultural ənənələrə malik olduğunu, burada yaşayan bütün etnik qrupların mədəni irsinə və adət-ənənələrinə həssaslıqla yanaşıldığını göstərir.

Bu etnik-mədəni müxtəlifliklə yanaşı, ölkənin dil mühiti də mürəkkəb və çoxqatlı xarakter daşımışdır. Belə ki, Azərbaycan dili əhalinin böyük əksəriyyəti üçün əsas ünsiyyət vasitəsi olaraq gündəlik həyatın bütün sahələrində geniş şəkildə istifadə olunmuşdur. Kənd və şəhər mühitində sosial münasibətlər, məişət ünsiyyəti və mədəni fəaliyyətlər əsasən bu dil üzərində qurulmuşdur. Bununla belə, Sovet dövrünün ideoloji və inzibati sisteminin təsiri nəticəsində rus dili dövlət idarəçiliyi, təhsil və elmi fəaliyyət sahələrində mühüm rol oynamışdır. Rus dilini bilmək həmin dövrdə sosial mobillik və peşəkar inkişaf imkanlarının genişlənməsi baxımından əhəmiyyətli üstünlük hesab edilirdi. Bu ümumi dil siyasəti və ictimai praktika çərçivəsində Azərbaycanda yaşayan etnik azlıqların dil mühiti də özünəməxsus şəkildə formalaşmışdır. Belə ki, ləzgilər, talışlar, avarlar, tatlar, yəhudilər və digər xalqlar öz ana dillərini qoruyub saxlayaraq əsasən ailə və icma daxilində bu dillərdən istifadə etmişlər. Bəzi regionlarda isə çoxdillilik gündəlik həyatın təbii bir hissəsinə çevrilmiş, insanlar eyni zamanda Azərbaycan dili, rus dili və öz etnik dilləri arasında funksional bölgü aparmışlar. Bu vəziyyət, xüsusilə kənd və şəhər mühitlərinin sosial strukturundan asılı olaraq, iki və ya üç dilin paralel istifadəsini geniş yayılmış praktikaya çevirmişdir.

Çoxdillilik şəraitində Azərbaycan dilinin leksik qatının zənginləşməsi

Çoxdillilik yalnız məişət səviyyəsində deyil, həm də mədəni və təhsil sistemində özünü göstərmişdir. Müxtəlif dillərdə nəşrlərin hazırlanması, məktəblərin fəaliyyət göstərməsi və mədəni tədbirlərin təşkili bu prosesin mühüm göstəricilərindən olmuşdur. Xüsusilə Sovet hakimiyyətinin ilk illərində "yerli kadrların inkişafı" siyasəti çərçivəsində milli dillərin inkişafına müəyyən şərait yaradılmış, bu da dil müxtəlifliyinin qorunmasına qismən töhfə vermişdir. Bununla belə, zaman keçdikcə rus dilinin inzibati və akademik sahələrdə üstün mövqeyi daha da güclənmiş, nəticədə bir sıra sosial institutlarda onun dominantlığı artmışdır.

Sovet hakimiyyətinin ilk onilliyi dil baxımından dinamik dəyişikliklər, funksional bölgü və paralel istifadə formaları ilə xarakterizə olunaraq, həm rəqabət, həm də mədəni qarşılıqlı təsir mühiti yaratmışdır. Lakin zaman keçdikcə bu dil balansında dəyişikliklər baş verdi. Sonrakı dövrlərdə rus dilinin rolu daha da gücləndi və bir çox sahələrdə dominant mövqe qazandı. Bu proses nəticəsində dil istifadəsində funksional iyerarxiya daha aydın şəkildə formalaşdı və ayrı-ayrı sahələr üzrə dillərin tətbiq dairəsi yenidən bölüşdürüldü. Ümumi dil mənzərəsi fonunda leksik sistemdə müxtəlif alınma sözlərin yaranması və yayılması da müşahidə olunurdu. Bu tip alınmalar əsasən sovet ideoloji sistemi, idarəetmə strukturu, təhsil və mədəniyyət sahələrində formalaşan yeni anlayışların ifadəsi ilə bağlı olmuşdur [Aslanov :1992, s.22]. İlk mərhələdə həmin sözlər həm mətbuat

dilində, həm də bədii ədəbiyyat nümunələrində geniş şəkildə işlədilmişdir. Lakin dilin normativləşməsi və terminoloji sistemin inkişafı ilə paralel olaraq bu leksik vahidlərin bir qismi ya arxaikləşmiş, ya da milli ekvivalentləri ilə əvəz olunmuşdur. Məsələn, "sport", "şou", "bank", "klass", "adres", "doklad", "stipendiya", "student" kimi sözlər müəyyən dövrlərdə Azərbaycan dilində işlənmiş, sonradan isə "idman", "göstəri", "sinif", "ünvan", "məruzə", "təqaüd", "tələbə" kimi milli qarşılıqlar daha geniş istifadə olunmağa başlamışdır.

Eyni zamanda, bəzi alınma sözlər tamamilə istifadədən çıxmamış, müəyyən funksional sahələrdə qismən qorunub saxlanılmışdır. Bununla yanaşı, Azərbaycan dilinin daxili söz yaradıcılığı imkanlarının genişlənməsi nəticəsində yeni leksik vahidlərin formalaşması prosesi də güclənmiş, bu isə ümumişlək leksikanın inkişafına və terminoloji sistemin standartlaşmasına xidmət etmişdir.

Sovet hakimiyyətinin ikinci onilliyində Azərbaycanda mühüm sosial-iqtisadi və mədəni dəyişikliklər baş vermişdir. Xüsusilə 1930-cu illərdə Azərbaycan dilinin inkişaf xüsusiyyətləri daha aydın şəkildə formalaşmağa başlamışdır. Bu dövrdə dilin funksional üslubları genişlənmiş, müxtəlif sahələr üzrə – xüsusilə elm, texnika, hüquq və idarəetmə sahələri üçün – terminoloji lüğətlər hazırlanmış və yeni anlayışları ifadə edən söz ehtiyatı zənginləşdirilmişdir. Azərbaycan dili elmi, rəsmi və ədəbi ünsiyyət vasitəsi kimi daha sistemli şəkildə inkişaf etmiş, yazı dili normativ qaydalar əsasında standartlaşdırılmışdır. Orfoqrafiya və qrammatika qaydalarının müəyyənləşdirilməsi, dərsliklərin və elmi əsərlərin ana dilində hazırlanması bu prosesə mühüm təkan vermişdir.

Bu ümumi inkişaf dinamikası fonunda Azərbaycan dilinin rus dili ilə təması müxtəlif səviyyələrdə özünü göstərməkdə davam edirdi. Tarixi mərhələlərdə bu təsir həm demoqrafik proseslərlə, həm də Azərbaycan SSR daxilində rus dilinin geniş ünsiyyət vasitəsi kimi funksionallaşması ilə bağlı olmuşdur. Bu təsirin konkret təzahür formalarından biri danışıq dilində rus mənşəli leksik vahidlərin işlədilməsidir. Məsələn: vabşe (ümumiyyətlə), plyaj (çimərlik), fortoçka (nəfəslik), xolodilnik (soyuducu), astanovka (dayanacaq), şofer (sürücü), tormoz (əyləc), butka (köşk, dükan), prosto (sadəcə), zakaz (sifariş), prava (sürücülük vəsiqəsi) və s. Bu sözlər gündəlik ünsiyyətdə tez-tez işlədilir: Get "fortoçkanı" aç, Sabah "plyaja" gedəcəyik, "Vabşe" sən düz demirsən, Get "butkaya" bir kilo qənd al, "Astanovkada" saxlayarsan, Bu gün "pravamı" aldım, Gəl "zakazınızı" qəbul et və s. [Heydərov : 1989, s.56]. Bu tip rus mənşəli leksik vahidlər zaman keçdikcə danışıq dilində sabitləşərək xalqın nitqində vərdiş halını almış, müəyyən ifadələr isə sanki qəlibləşmiş leksik vahidlər kimi istifadə olunmağa davam etmişdir. Bu isə həmin sözlərin dil təmasları nəticəsində Azərbaycan danışıq dilinin leksik sisteminə inteqrasiya olunmasını və uzunmüddətli istifadədə funksional sabitlik qazanmasını göstərir. Beləliklə, qeyd olunan dil hadisəsi sosial-mədəni və tarixi amillərlə şərtlənmiş kompleks bir proses kimi çıxış edir və onun nəticələri Azərbaycan dilinin danışıq qatında leksik dəyişmələr şəklində özünü göstərməkdə davam edir.

Nəticə etibarilə, aparılan təhlil göstərir ki, Azərbaycanda çoxdillilik tarixi, sosial, siyasi və mədəni amillərin qarşılıqlı təsiri nəticəsində formalaşmış kompleks dil hadisəsidir. Xüsusilə sovet dövründə həyata keçirilən dil siyasəti, miqrasiya prosesləri və rus dilinin geniş funksional istifadəsi ölkədə ikidilliliyin və çoxdilliliyin daha da güclənməsinə şərait yaratmışdır. Bu şərait Azərbaycan dilinin həm leksik, həm də funksional baxımdan zənginləşməsinə, eyni zamanda onun normativ sistem kimi inkişaf etməsinə təkan vermişdir. Bununla yanaşı, müxtəlif etnik dillərin qorunub saxlanması və paralel dil istifadəsi ölkənin dil mühitini daha da çoxqatlı etmişdir. Beləliklə, Azərbaycan dil mühiti tarixən formalaşmış multikultural ənənələr və sovet dövrünün sosial-linqvistik prosesləri əsasında çoxdilli xarakter alaraq müasir dövrə qədər inkişaf etmişdir.

ƏDƏBİYYAT

1. Aslanov V.İ. Azərbaycanda ikidillilik və çoxdillilik (tarix və müasirliyə ümumi baxış) Nitq mədəniyyəti məsələləri. II buraxılış. // - Bakı: 1992, s.14-30.

2. Cəfərova. K.A. Dillərin qarşılıqlı təsirinin linqvistik xüsusiyyətləri // - Bakı, Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Bakı, 2018, - s.7-10.

3. Heydərov, R.A. Dillərin inkişafında dil əlaqələrinin rolu / - Bakı, "Elm və təhsil", - 2013, - 216 s.

4. Xudiyev, N.M. Azərbaycan ədəbi dilinin sovet dövrü / – Bakı, "Maarif" 1989, 402 s.

5. Асланов, В.И. О характере и форма проявлении двуязычие и многоязычиев Азербйджане.//Москва: Проблемы двуязычие и многоязычие, 1972.

6. Зейналова, С. Из истории мультикультурализма в Азербайджане: Баку, 2016. URL:https://news.day.az/ politics /74 2876. html

7. Мамедли, А., Соловьева, Л.Т. Народы и культуры / А. Мамедли, Л.Т. Соловьева. – Москва: Наука, – 2017. –708 с.

8. Мультикультурализм: тенденции и реальность. // – кол. авт.: А.Ализаде [и др.]; науч. ред.: И.Габиббейли, Н.Сотникова; НАНА, Ин-т Литературы им. Низами; Ставропольский филиал Моск. гос. пед. ун-та. Баку: Элм, – 2016. – 192 с.

THE FORMATION OF MULTILINGUALISM IN AZERBAIJAN DURING THE SOVIET PERIOD: HISTORICAL AND EXTRALINGUISTIC FACTORS

SUMMARY

During the Soviet period in Azerbaijan, multilingualism predominantly evolved as a bilingual system structured around Azerbaijani–Russian language interaction. In this context, the Russian language occupied a dominant position in state administration, the education system, and the scientific domain. The Azerbaijani language, in contrast, functioned primarily as the medium of everyday com-

munication and cultural expression. Although the languages of certain ethnic minorities were present within the linguistic landscape, their official status and institutional usage remained significantly limited.

The objective of this article is to examine the development of multilingualism in Azerbaijan during the Soviet period, with particular emphasis on the sociolinguistic roles of the Azerbaijani and Russian languages. It further aims to analyse the main directions and underlying objectives of language policy implemented in that historical context. In addition, the study seeks to identify and describe the bilingual configuration that emerged within Azerbaijani society as a result of these processes, as well as to assess its implications for the status and development of the national language.

Key words: *multilingualism, Soviet period, Azerbaijani language, Russian language, bilingualism, language policy.*

ФОРМИРОВАНИЕ МНОГОЯЗЫЧИЯ В АЗЕРБАЙДЖАНЕ В СОВЕТСКИЙ ПЕРИОД: ИСТОРИЧЕСКИЕ И ЭКСТРАЛИНГВИСТИЧЕСКИЕ ФАКТОРЫ

РЕЗЮМЕ

В советский период в Азербайджане многоязычие преимущественно функционировало в форме устойчивой двуязычной системы, основанной на взаимодействии азербайджанского и русского языков. В данном контексте русский язык занимал доминирующие позиции в сферах государственного управления, образования и научной коммуникации, выполняя функции основного языка официального и институционального общения. Азербайджанский язык, в свою очередь, использовался преимущественно в сфере повседневной коммуникации и культурной практики, сохраняя значимость как средство этнокультурной идентификации. Одновременно с этим, несмотря на наличие языков отдельных этнических меньшинств, их функциональная сфера была существенно ограничена, а использование в официальных и институциональных контекстах носило периферийный характер.

Цель статьи заключается в комплексном изучении процессов многоязычия в Азербайджане в советский период, а также в анализе функционального распределения и общественной роли азербайджанского и русского языков в рассматриваемый исторический период. Особое внимание уделяется выявлению основных направлений и целевых установок языковой политики, проводимой в условиях советской языковой системы. Кроме того, важной задачей исследования является характеристика сформировавшейся двуязычной ситуации и определение её влияния на развитие национального языка, его функциональную нагрузку и социолингвистический статус в обществе.

Ключевые слова: *многоязычие, советский период, азербайджанский язык, русский язык, двуязычие, языковая политика.*